*20 il əvvəl yaranan "Kredo"*

# ƏBƏDİYYƏTƏ APARAN YOL



*Nəriman MAHMUD, yazıçsı-publisist, "Kredo"nun sabiq əməkdaşı*

Bu gün (red: - dünən) çağdaş Azərbaycan ədəbi-tarixi mühitində böyük nüfuza malik olan "Kredo" qəzetinin nəşrə başlamasından 20 il ötür. Düz 20 il öncə – 1999-cu il oktyabrın 12-də qəzetin ilk sayı işıq üzü görüb. İlk saylarından mənim də çalışdığım, siyasi şöbəyə rəhbərlik etdiyim "Kredo", qəzetin baş redaktoru Əli Rza Xələflinin işıq üzü görən çoxsaylı əsərlərindən, bir vətəndaş, ziyalı kimi ən böyüyüdür desək, yanılmarıq. Həmişə söz, qələm və elm adamlarının görüş və ümid yeri olan bu qəzet onun fədakarlığı hesabına bu gün də yazarlarla oxucular arasında körpü rolu oynayır...

Bəli, "mətbuat cəmiyyətin güzgüsüdür" deyənlər yanılmırlar. Çünki güzgü hər şeyi və hər kəsi olduğu kimi göstərir: eyni boyda, eyni biçimdə.

Yadımdadır, "Kredo"nun ilk sayının ilk səhifəsində ilk olaraq baş redaktor Əli Rza Xələflinin "Məsləkə müxalif deyilik" başlıqlı yazısı diqqətimi cəlb etmişdi. Çünki bu yazı əslində "Kredo"nun, necə deyərlər, pasportu, "şəxsiyyət vəsiqəsi", həyata yenicə vəsiqə alan qəzetin fəaliyyət istiqamətinin bəri başdan müəyyənləşdirilən göstəricisi idi. Və nəşrə başlamasından ötən 20 illik zaman kəsiyi "Kredo"nun və "Kredo"çuların tacir olmadığını, başqa sözlə, baş redaktorun elə həmin sərlövhəli yazısında deyildiyi kimi, bazar uğuru naminə sözü girov qoymadığını göstərdi...

Mən Əli Rza müəllimi çox yaxından tanıyan adamlardan biri kimi qəti əminəm ki, qəzetə qoyulan "Kredo" adı heç də təsadüfi seçim deyildi. "Kredo" sözünün mahiyyətini, məna yükünü – məsləki, əqidəni, dünyagörüşünü, bir sözlə, həyat amalını – özündə daşıyan Əli Rza Xələfli rəhbərlik etdiyi qəzeti də elə özü kimi görmək istəyirdi. Əslində, elə istər elektron olsun, istərsə də çap mediası, onların hamısı sahibinə bənzəyir. Əli Rza müəllim və onun "Kredo"su da bu baxımdan istisna deyil.

**(Davamı 15-ci səhifədə)**

Kredo 2019.- 16 oktyabr.- S.1;15.

## 20 il əvvəl yaranan "Kredo"

# ƏBƏDİYYƏTƏ APARAN YOL

*(Əvvəli 1-ci səhifədə)*

Əlbəttə, Əli Rza Xələflini fərqləndirən özünəməxsus xeyli keyfiyyət göstəriciləri var. Bunu təsdiq etməkdən ötrü onun qəzet səhifələri üçün kompüterin yaddaşına birbaşa diktə ilə yazdırdıqlarının heç bir redaktəyə ehtiyacı olmadan mətnə getməsinin şahidi olmaq kifayətdir. Amma məsələ təkcə bunda da deyil. Əli Rza müəllimin sözü özündən, özü də sözündən boylanır. Onun özünü tanımaq üçün sözünü tanımaq kifayət edir.

"Kredo"nu da həmçinin. Allah ona yüksək səviyyədə natiqlik istedadı və fövqəladə yaddaş da verib. Və nədənsə həmişə mənə elə gəlib ki, Əli Rza müəllim danışanda səsi boğazdan deyil, rasional aləmlə irrasional aləmin sərhədindən gəlir. Ordan gələn səslər isə tər-təmizdir, aydan arı, sudan durudur. Çünki dünyaya cibinin və mədəsinin yox, ruhunun gözü ilə baxanlar, elə ruhunun da dili ilə danışırlar. Ona görə ki, bu dil məsumdur və məsum olduğu üçün həm də səmimidir. Əli Rza Xələfli sadəcə yaratmadığı, həm də adı ilə böyütdüyü "Kredo"nu da həmişə bu dildə "danışdırıb".

Yolum redaksiyaya düşəndə həmişə Əlirza Xələflini ayaq üstə, var-gəl edən görürəm. Doğrusu, heç bunun səbəbini də soruşmuram. Çünki onun ayaq üstə olmasının, "Kredo"nun da ayaqda qalmasına birbaşa dəxli olduğunu bilirəm.

Əli Rza müəllimin fərqi həm də ondadır ki, qəzetə maddi gəlir gətirən istehsal sahəsi deyil, həqiqətən qeyri-istehsal sahəsi kimi baxırdı. Bir qədər də konkretləşdirsək, məqsədi cəmiyyət qurmaq, cəmiyyətin əsas qurucularından biri olmaq idi. Bu ağır və həm də şərəfli bir missiyanı öz üzərinə götürmüşdü. Və götürərkən bütün insan tiplərinin mövcud olduğu böyük bir toplumun içərisində belə bir məsuliyyətin ağır, həm də çox ağır yükünü illərlə həssas qəlbində daşımağın (fiziki yükü belində daşımağa nə var ki, yorulanda yerə qoyub bir hovur dincini alırsan, amma çətin olanı mənəvi yükün ruhda daşınmasıdır – N.M) nə demək olduğunu yaxşı bilirdi.

Bazar qayda-qanunlarının əjdaha kimi ağzını açıb hamını udmağa hazır olduğu 20 il bundan əvvəlki dönəmlərdə əqidə və məsləki, mənəviyyatı maddiyyatdan önə keçirmək həddən artıq riskli idi. Amma Əli Rza Xələfli tutduğu yoldan dönmədi, bu riskə getdi, qəzeti yaşatmağın bazar yolunu seçmədi. Və bəlkə elə seçmədiyi üçün, hələlik bura qədər gəlib çata bildiyi 20 illik yol heç də həmişə hamar olmadı, maddi sıxıntılar yaşadı. Heç vaxt həyat kredosundan dönməyən Əli Rza müəllim hətta ən kritik zamanda belə "Kredo"nun "işığını" sönməyə qoymadı. Necə deyərlər, öz boğazından kəsib "Kredo"nu "yemlədiyi" vaxtlar çox oldu. Fəqət maddi baxımdan "işıq gələn tərəfi" deyil, "Kredo"nu əbədiyyətə aparan yolu seçdi. Elə yol ki, onun üstündə onlarla, bəlkə də yüzlərlə saz-söz adamı, yazıçı və şair, gənc yazar, ədəbiyyat və elm adamı üçün yaşıl işıq yanırdı.

Bəli, Əli Rza müəllim ikinci ədəbiyyat qəzeti hesab olunan "Kredo"su ilə birlikdə ədəbiyyatımıza təmənnasız xidmət göstərib və bu gün də göstərməkdədir. Ona və rəhbərlik etdiyi qəzetin əməkdaşlarına, həmçinin onların timsalında "Kredo"ya bundan sonra da tutduğu müqəddəs yolda uğurlar diləyir, uzun ömür arzulayıram.

***12 oktyabr, 2019***